

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 244 (24.381)

30 dekabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.gov.az

Qiymәti 30 qәpik

## Heydər Əliyev İli 100



## Heydər Əliyev dühasından yaranan birlik

31 dekabr xalqımızın tarixində ən müqəddəs günlərdən biridir. Artıq 32 ildir ki, dünyada yaşayan, qəlbi Azərbaycanla döyünən dünya azərbaycanlıları 31 dekabr tarixini – Dünya Azərbaycanlılarının Birliyi və Həmrəyliyi Gününü çox böyük bir sevinc və iftixarla qarşılayır.

Tarix dəfələrlə sübut edib ki, milli özünüdərk, milli birlik və həmrəylik kimi keyfiyyətlərdən məhrum olan xalqlar gec-tez daha güclü xalqların təsiri altına düşərək, assimilyasiya olunur və öz kökünü itirir. Ona görə də müasir dünyanın qabaqcıl xalqlarından, millətlərindən biri olmaq üçün əzm, siyasi iradə nümayiş etdirmək, bir millət kimi beynəlxalq nüfuz qazanmaq lazımdır. Dünya azərbaycanlılarının harada məskunlaşmalarından asılı olmayaraq, ən mühüm, ən müqəddəs vəzifələrindən biri Azərbaycan xalqının tarixi nailiyyəti, bütün dünya azərbaycanlılarının mənəvi-siyasi iradəsinin nəticəsi olan müstəqil dövlətçiliyimizi qoruyub saxlamaqdan, milli dövlətimizin dünya birliyində özünəməxsus yer tutmasına çalışmaqdan ibarətdir.

Dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların mədəni-siyasi birliyi, həmrəyliyi müstəqil Azərbaycan Respublikasının və bütün dünya azərbaycanlılarının mənafeyinə uyğundur, onun əsas strateji məqsədlərindən biridir.

*(ardı 2-ci səhifədə)*

## Zəfər yolu, zəfər dili



*Tarix bizi çox sınaqlara çəkib. Bu xalq məğlubedilməz xalqdır və öz qəhrəman oğulları sayəsində bu sınaqlardan həmişə üzüağ çıxıb. Bizim tariximizdə çox şanlı səhifələr vardır ki, onlar, əslində, düşmənə ibrət dərsidir. Yəqin ki, onlardan ən parlağı yaxın tarixi zaman kəsiyində yaşadığımız, hamımızın gözləri önündə cərəyan edən Vətən müharibəsi dövrüdür. 2020-cil il Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. 30 ilə yaxın bir dövr ərzində xalqımızın maddi-mənəvi istismarına son qoyan şanlı Ordumuz Azərbaycanın üçrəngli bayrağını yenidən Qarabağ səmasında dalğalandırdı.*

*(ardı 2-ci səhifədə)*

## "Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu təsdiq edilsin (əlavə olunur).

3. "Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

4. "Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

5. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti adlandırılsın.

6. "Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

7. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin işçilərinin say həddi cəmi 554 ştat vahidi olmaqla, Nazirliyin aparatı üzrə 103 ştat vahidi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti üzrə 271 ştat vahidi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə 107 ştat vahidi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti üzrə 73 ştat vahidi müəyyən edilsin.

8. Müəyyən edilsin ki:

8.1. bu Fərmanın 3-cü, 4-cü və 6-cı hissələri ilə əsasnamələri təsdiq edilən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətinin, Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin və Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin hüquqi varisləridir, onların bütün hüquq və öhdəlikləri, habelə əmlakı aidiyyəti üzrə yuxarıda adları çəkilən dövlət xidmətlərinə keçir;

8.2. bu Fərmanın 3-cü, 4-cü və 6-cı hissələri ilə əsasnamələri təsdiq edilən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin hər birinin yeni strukturu və strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı təsdiq edilənə qədər Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətinin, Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin və Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar fəaliyyətlərini davam etdirirlər və onların strukturu, vəzifə maaşları, əməyin ödənilməsi sistemi, xidmətkeçmə ilə bağlı hüquq və vəzifələri bu Fərmanın 11.1-11.3-cü bəndləri icra olunanadək dəyişməz qalır.

9. "Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi və "Naxçıvan Muxtar Respublikasının bəzi mərkəzi icra hakimiyyəti orqanlarının yenidən təşkil edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 7 yanvar tarixli 196-V FR nömrəli Fərmanı ilə yaradılmış mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətinin təmin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 17 iyun tarixli 23-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 27 aprel tarixli 164-VI FR nömrəli Fərmanının 1-ci və 2-ci hissələri ləğv edilsin.

10. "Naxçıvan Muxtar Respublikasının bəzi mərkəzi icra hakimiyyəti orqanlarının yenidən təşkil edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 7 yanvar tarixli 196-V FR nömrəli Fərmanı ilə yaradılmış mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətinin təmin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 17 iyun tarixli 23-VI FR nömrəli Fərmanının 2-ci, 3-cü, 5-ci, 6-cı və 7-ci hissələri ləğv edilsin.

11. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

11.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

11.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

11.3. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri əsasında, onun strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla təsdiq etsin;

11.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

11.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

12. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

13. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 29 dekabr 2023-cü il*



# Heydər Əliyev dühasından yaranan birlik

(əvvəli 1-ci səhifədə)

Bu gün dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümummilli ideya – Azərbaycançılıq, müstəqil dövlətçilik və milli-mənəvi dəyərlər ətrafında birləşməsi prosesi hər birimizi sevindirir.

XX əsrin 80-ci illərinin axırında dünyada baş verən qlobal dəyişikliklərlə əlaqədar bir çox xalqların, o cümlədən Azərbaycan xalqının özünüdərki, həmrəylik hissi gücləndi. İctimai həyatın demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində ilk olaraq Naxçıvan Muxtar Respublikasında 1989-cu ilin noyabrında Şimali və Cənubi Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinə qarşı xalqın etirazı başlandı. Beləliklə, Sərhəd hərəkatı adı ilə başlanan bu siyasi aksiya 1989-cu il dekabr ayının 31-də azərbaycanlıların həmrəylik hərəkatına çevrildi.

Bu gün Azərbaycanı özünə tarixi Vətən bilən hər bir şəxsin vahid amal və ideologiya ətrafında birləşməsi, həmrəylik nümayiş etdirməsi dövrün tələbi, zamanın çağırışıdır. Məhz buna görə də Ulu Öndərimiz Heydər Əliyev bütün fəaliyyəti dövründə digər sahələrlə yanaşı, dünyanın müxtəlif ölkələrindəki soydaşlarımızla əlaqələrin qurulmasına, onların milli həmrəyliyinin təmin olunması məsələsinə də diqqət yetirmiş, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirmişdir.

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə Ümummilli Liderimizin səyi nəticəsində istər Azərbaycanda, istərsə də ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və milli-mənəvi dəyərlər ətrafında birləşdirilməsinə nail olunmuş, dünya azərbaycanlılarının malik olduqları potensialın ümummilli problemlərin həllinə yönəldilməsi təmin edilmişdir.

Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini Ulu Öndər hələ 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının rəhbəri işləyərkən diqqət mərkəzində saxlamış, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən “31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərar qəbul edilmişdir. Qərara əsasən 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olunmuşdur. Bayramın bütün dünya azərbaycanlıları tərəfindən birlik, həmrəylik günü kimi hər il böyük təntənə və qürur hissi ilə qeyd edildiyini bildirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün Ulu Öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda Onun təşəbbüsü ilə 31 dekabr “Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü” kimi elan edilmişdir”.***

Dünya azərbaycanlılarının konkret milli ideya ətrafında sıx birləşdirilməsi ideyasını irəli sürən Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarının qarşısında duran vəzifələri dəqiq və aydın müəyyənləşdirmişdir: onlar, ilk növbədə, öz milli kimliklərini dərk və hifz etməli, Azərbaycanın dilini, mədəniyyətini, adət-ənənələrini, tarixini yaşatmalı, inkişaf etdirməlidirlər. Dünyada yaşayan soydaşlarımız, eyni zamanda ana Vətənlə əlaqələrini möhkəmləndirməli, Azərbaycan dövlətinin, cəmiyyətinin problemləri ilə yaşamalı, onların həlli üçün mənəvi məsuliyyət daşımalıdırlar.

Bu vəzifələrin icrasını təmin etmək məqsədilə 2001-ci il noyabrın 9-10-da Bakıda tarixi bir toplantı – Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir. Qurultaydakı nitqində dahi rəhbərimizin söylədiyi ***“Fəxr edirəm ki, mən azərbaycanlıyam!”*** sözləri 50 milyon dünya azərbaycanlısı üçün milli qürur simvoluna çevrilmişdir. Qurultayda Ulu Öndər demişdir: ***“Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Xaricdə yaşayan azərbaycanlılar isə gərək indi müstəqil Azərbaycan ilə daha sıx əlaqələr qursunlar. Bunlar dünyada olan bütün azərbaycanlıların birliyini, həmrəyliyinin təmin olunması üçün əsas şərtdir”.***

Ulu Öndərin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktuallığını qoruyur, bu siyasətin dahi şəxsiyyətin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ardıcıl və qətiyyətli addımlar atılır. Dövlət başçısının 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir.

III və IV qurultaylar bu istiqamətlərdə görülmüş işlər, qəbul edilmiş qərarlar, tədbirlər və təşkilatlanma proseslərinin geniş müzakirəsi ilə yadda qalmışdır.

2022-ci il aprel ayının 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər qurultayı keçirilmiş, Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyev qurultayda geniş nitq söyləyərək demişdir: ***“Biz bu gün Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz 30 il torpaqları işğal edilmiş ölkə kimi yaşamışıq. Bu bizim üçün çox ağır idi. Mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün – xaricdə yaşayanlar üçün”.***

Xaricdəki soydaşlarımızın yaşadıqları ölkələrin ictimai-siyasi proseslərində fəallıq göstərmələri, respublikamız üçün böyük önəm kəsb edir. Çünki bununla onlar həmin ölkələrdə nüfuz qazanmış, mövqelərini möhkəmləndirmiş olurlar. Diasporumuzun ictimai-siyasi proseslərə təsir etmək imkanına malik amilə çevrilməsi üçün görüləcək işlər hələ çoxdur. Ulu Öndər Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışında tövsiyə etdiyi kimi: ***“Azərbaycanlılar gərək yaşadıqları ölkədə o şəraiti mənimsəyərək orada özləri üçün yaxşı mövqe tutsunlar. Ancaq öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır, Azərbaycançılıqdır”.***

Odlar yurdu Azərbaycanın başqa şəhər və bölgələrində olduğu kimi, muxtar respublikamızda da Dünya Azərbaycanlılarının Həmrəylik Günü yüksək səviyyədə qeyd olunur. Tariximizin heç zaman silinməyən səhifəsində unudulmaz bir gün kimi yaddaşlara həkk olunan bu əziz gün hamımızın Vətəni olan Azərbaycan Respublikasında birliyimizi, həmrəyliyimizi daha da möhkəmləndirir. Bu birlik, bu həmrəylik sərhədləri bütünlüklə bərpa olunan, suverenliyi tam təmin edilən, Zəfər sevinci ilə yaşayan, çiçəklənən Azərbaycanımızın qüdrətini daha da artırır, onun Cənubi Qafqazda qüdrətli dövlətə çevrilməsinə təminat yaradır.

**Qadir İBRAHİMOV**

***Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***



# Zəfər yolu, zəfər dili

(əvvəli 1-ci səhifədə)

Vətən müharibəsində Azərbaycan xalqının qələbəsini şərtləndirən bir sıra amillər var idi. Burada, hər şeydən əvvəl, seçilmiş düzgün strategiya, müharibədə istifadə olunan müasir texnika, ölkəmizin beynəlxalq münasibətlər istiqamətində yürütdüyü uğurlu siyasət, xalq ruhu və vətənpərvərlik kimi amilləri xüsusi qeyd etmək lazımdır. Lakin bir şeyi də unutmaq olmaz ki, Azərbaycan öz torpaqları uğrunda mübarizə aparmaqla yanaşı, hələ bu gün də davam edən çox mürəkkəb informasiya müharibəsinə cəlb olunmuşdu. Bu informasiya müharibəsində qələbə qazanmağın əsas yolu öz məqsədimizi dünya ictimaiyyətinə düzgün çatdırmaqdan keçirdi. Bu sahədə Ali Baş Komandanımız, ölkə Prezidenti cənab İlham Əliyevin dünyanın müxtəlif kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr də mühüm rol oynadı. Bununla yanaşı, İlham Əliyev həm də baş verən hadisələrlə bağlı öz xalqını tez-tez məlumatlandırırdı.

İkinci Qarabağ müharibəsi dövründə İlham Əliyev xalqa 6 dəfə müraciət etdi. Sonrakı dönəmlərdə də işğaldan azad olunmuş ayrı-ayrı rayonlardan Prezident xalqa mütəmadi səslənirdi. Nəhayət, 2023-cü ilin sentyabrında Qarabağ ərazisində keçirilən antiterror əməliyyatından sonra isə növbəti dəfə xalq Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması xəbərini Prezidentin dilindən eşitdi. Baş verən bütün bu tarixi hadisələrdən bir qədər də əvvələ qayıtsaq, fikrimizcə, ölkə başçısının zəfər üslubunun təməlində məşhur bir nida işarəsi dayanır. Çünki hələ 2019-cu ildə Soçidəki “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Ermənistanın baş naziri Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” kimi sərsəm bəyanatına İlham Əliyev çox böyük səbir və təmkinlə belə cavab verdi: ***“Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”.*** Bu nida işarəsi sanki bütün Azərbaycanı mübarizəyə səsləyən bir şüara çevrildi. Ölkədə hər kəsin dilində bu cümlə səslənməyə başladı. Xalqın 30 il ərzində qaysaq bağlamamış Qarabağ yarasını qanatdı və bu yaranı sağaltmağın artıq vaxtının yetişdiyi mesajını verdi.

Ümumiyyətlə, cənab İlham Əliyev həmişə öz nitqinin aydınlığı, məntiqiliyi, ardıcıllığı, qətiyyəti, inandırıcılığı ilə dinləyənləri cəlb edib və edir. Vətən müharibəsi dövründə xalqa müraciətləri də bu barədə istisna deyil. Müxtəlif mənbələrdən doğru, yaxud yanlış informasiya axınının insanları çaşbaş salmağa çalışdığı həmin dövrdə insanlar öz prezidentlərini ən etibarlı mənbə seçdilər. Ona inandılar, ona güvəndilər və ən doğru məlumatları ondan aldılar. 2020-ci il sentyabrın 27-də, hadisələrin başlanğıcında Prezident xalqa müraciət edərək sanki baş verəcək hadisələrin planını cızdı, səbəbini, məqsədini, məramını aydın şəkildə izah etdi: ***“Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var? Ermənistan ordusunun bizim torpağımızda nə işi var? Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”***

Bundan sonrakı müraciətlərinin hər birində Ali Baş Komandan xalqa qələbə xəbərləri verir. Bu çıxışları zamanı o Azərbaycan dilinin geniş ifadə imkanlarından məharətlə istifadə edir, yeri gəldikcə xalq dilinə məxsus ifadələrdən də istifadə edərək qələbənin qazanılmasında Azərbaycan əsgərinin rolunu qabardır, insanları qələbəyə ruhlandırır və inandırır. Prezident çıxışları ilə hər növ öz xalqı ilə “dərdləşir”, xalqla daha da yaxınlaşır. Xalq onun dilində ilk dəfə öz gündəlik danışığında işlətdiyi tanış ifadələr eşidir. Lakin Prezidentimiz hər dəfə xüsusi qeyd edir ki, bizim məramımız sülhdür. Biz müharibə istəmirik. Mülki əhaliyə ziyan vurmuruq. Hər nə qədər söhbət bilavasitə hərbi şəraitdə və hərbi şərtlər daxilində getsə də, Prezidentin nitqində sülh konsepti aparıcıdır. Ümumiyyətlə, müraciət mətnlərinin dili üzərindəki araşdırmalar göstərir ki, Prezident Azərbaycan xalqının, Azərbaycan Ordusunun gücünü, qüdrətini həmişə qeyd edir, ancaq hər dəfə bu gücün, qüdrətin missiyasının məhz vicdanlı sülh yaratmaqdan ibarət olduğunu deyir.

Ali Baş Komandanın xalqa müraciətlərində tez-tez biz mənfur qonşumuzun baş nazirinə yönəldilmiş ritorik suallarla qarşılaşırıq: Bəs nə oldu, Paşinyan? Niyə qaçırsan Moskvaya? Niyə zəng vurursan, dünya liderlərinin beynini xarab edirsən? Bəs hanı sənin hikkən? Hanı sənin təkəbbürün? Bəs Azərbaycan xalqını təhqir edəndə, “Qarabağ Ermənistandır və nöqtə” deyəndə niyə belə cəsarətli idin? Cəbrayıla yol çəkirdin? Kimə arxalanırdın?

Özü isə haqq mübarizəsi aparan, ədaləti bərpa edən, nə istədiyini bilən bir lider kimi deyir: ***“Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”***

Nəhayət, Prezident 8 noyabr 2020-ci ildə həssas notlara köklənmiş müraciəti ilə insanların uzun illərdir, gözlədiyi tarixi xəbəri verdi və bu çıxış Azərbaycan xalqının yaddaşına ömürlük həkk olundu: ***“Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!”***

*Ölkə Prezidentinin xalqa müraciətlərində tez-tez eşitdiyimiz bu cür* ***“Qarabağa həyat yenidən qayıdacaq”, “Orada körpə səsləri eşidiləcək”, “Əziz Şuşa, biz səni dirçəldəcəyik”*** *kimi gələcək zamandakı cümlələr artıq Vətən müharibəsindən çox az bir zaman keçməyinə baxmayaraq, bu gün indiki zamanın reallığına çevrilir. Doğrudan da, bu gün Qarabağa həyat qayıdıb, düşmən terrorunun dağıdıcı təsirinə məruz qalmış ərazilər dirçəlir, abadlaşır və öz daimi sakinlərini qarşılayır.*

**Nuray ƏLİYEVA**

***filologiya elmləri doktoru***

## Uşaqların sevinci dünyanın sevincidir
## *52 şagirdin arzuları gerçəkləşdi*





*31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Ordubad şəhər internat tam orta məktəbində tədbir keçirilib.*

Naxçıvan şəhərində “Snowfest” çərçivəsində məktəbin şagirdlərinin yeni il arzuları əks olunan dilək yolkasının üzərində şagirdlər tərəfindən ünvanlanan istəklərin hər biri qarşılanaraq dilək sahiblərinə çatdırılıb. Ümumilikdə, 52 şagirdə bayram sovqatı təqdim olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, nümayəndəliyin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı, Naxçıvan Muxtar Respublikası təhsil nazirinin səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini Elxan Nəcəfov, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev və Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli iştirak edib.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli uşaqları bayram münasibətilə təbrik edib, onlara xoş arzu və diləklərini çatdırıb.

Sonda xatirə şəkli çəkdirilib.

**Bülbül QULİYEVA**

## Naxçıvan gəncləri ilin yekunları ilə bağlı mükafatlandırılıblar



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində ilin yekunları və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbir keçirilib.

“Naxçıvan Saray”da reallaşan tədbirdə öncə Ümummilli Lider Heydər Əliyev və ölkəmizin bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı bildirib ki, Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Ulu Öndər Heydər Əliyevin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Prezidenti cənab İlham Əliyev bu meyarları nəzərə alaraq ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində işlər görülür.

Uğur qazanan gəncləri təbrik edən Günay Malikqızı



qeyd edib ki, bu gün gənclik cəmiyyətin aparıcı qüvvəsi hesab edilir. Bu dövrün hər anından səmərəli istifadə etmək gərəkdir.

“2023-cü il muxtar respublikanın gənclik və idman mühiti üçün dinamika, yeniliklər və uğurlar baxımından yaddaqalan oldu. Gənclər və İdman Nazirliyi aid təşkilatlarla birgə 2023-cü ildə 222-si gənclərlə iş, 144-ü idman sahəsində olmaqla, ümumilikdə, 366 tədbir keçirdi və 15 mindən çox uşaq, yeniyetmə, gənc bu tədbirlərdə iştirak etdi”. Bu sözləri gənclər və idman naziri səlahiyyətlərini icra edən, nazir müavini Məcid Seyidov tədbirdəki çıxışı zamanı səsləndirib. Nazir müavini Naxçıvan idmançılarının nailiyyətləri barədə danışarkən qeyd edib ki, 2023-cü ilin ötən dövrü ərzində ölkə miqyaslı yarışlarda 153, beynəlxalq turnirlərdə 62, Avropa çempionatlarında 6, dünya çempionatlarında 4 olmaqla, ümumilikdə, 225 medal qazanılıb. Medallardan 67-si qızıl, 67-si gümüş, 91-i isə bürüncdür. Bir idmançımız Avropa çempionu, biri isə dünya çempionu olmağı bacarıb.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru, millət vəkili Cəbi Quliyev 2023-cü ildə muxtar respublikada gənclər siyasəti ilə bağlı həyata keçirilən tədbirlərdən danışıb.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının konsert proqramı təqdim edilib. Tədbir çərçivəsində mükafatlandırma mərasimi keçirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan seminar





Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təşkil olunan tədbirdə Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarova və Hüquq və İnsan Haqları İnstitutunun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin müdiri Vüsalə Muradxanlı çıxış edərək vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan müraciət və şikayətlərinin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılmasından, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsindən, Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququndan danışıblar.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazovun və institutun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin təlimçi-eksperti Hamlet Babayevin seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsipləri, seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılmasına dair çıxışları dinlənilib, slayd vasitəsilə mövzular barədə ətraflı məlumat verilib.

Seminara qatılan dairə seçki komissiyalarının bütün Ekspert qrupu üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən ilk dəfə hazırlanan və şikayət və müraciətlərin araşdırılması müddətləri, ardıcıllığı, qaydaları və sübutların qiymətləndirilməsi, habelə rəylərin və qərar layihəsinin hazırlanması prosedurlarını aydın və əhatəli əks etdirən Yaddaş kitabçası təqdim olunub.

Qeyd edək ki, seminarda muxtar respublika üzrə 6 dairə seçki komissiyasının sədr, katib və ekspert qrupunun 36 üzvü iştirak edib.

**Səbuhi HƏSƏNOV**

*Köşə yazısı*

## Dünya qədər sevgi payı



**Gülcamal TAHİROVA**

Böyük ümidlər bəslədiyimiz yeni ilin astanasındayıq. Geriyə boylandıqda canımız, qanımız, doğma Azərbaycanımızın gündən-günə çiçəklənməsi, qüdrətlənməsi yolunda dövlətimizin imza atdığı böyük uğurları göz önünə gətirib qürurlanırıq. Elə dekabrın 21-də Xankəndi stadionunda xalqımız daha bir qürurlu hadisənin, dünya ictimaiyyəti isə tarixi reallığın şahidi oldu. Otuz iki ildən sonra ilk dəfə olaraq Xankəndi stadionunda futbol matçı keçirilirdi. Bu unudulmaz hadisə Azərbaycan xalqının hədsiz sevincinə, fərəhinə səbəb oldu. Şəhidlərin ruhuna ehtiram və vətənpərvərlik nümunəsi olan yarış dünya ictimaiyyətinə tutarlı bir mesaj idi: “Qarabağ Azərbaycandır!”

Xalqın lideri olmaq böyük şərəfdir. Lakin xalqın sevimli lideri, əziz Prezidenti olmaq şərəfdən ziyadə həm də xoşbəxtlik, bəxtəvərlikdir. Elə dövlət başçımız cənab İlham Əliyevin özünün qeyd etdiyi kimi, O xoşbəxt insandır. Xoşbəxtdir ona görə ki, uşaqdan-böyüyə hər kəsin könlündə məhəbbət taxtı qurub, səmimiyyəti, sadəliyi, təvazökarlığı, insanpərvərliyi ilə xalqın sonsuz inamını, etibarını və əbədi sevgisini qazanıb. Bu sevginin ən təmiz, ən saf üzü isə uşaqların ona bəslədiyi təmənnasız sevgidir. Bu ucsuz-bucaqsız, saf, təmiz sevgiyə ölkəmizin başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid övladları ilə birgə yarışı izləyərkən bir daha şahid olduq.

Dövlət başçısı üçün ayrılmış sektorda oyuna tamaşa edən uşaqlar Prezident və onun xanımı Mehriban Əliyevadan bir an olsun ayrılmaq istəmədi. Cənab İlham Əliyevin uşaqlarla maraqlı dialoqu hər birimizin üzündə təbəssümə səbəb olan, dəfələrlə izləsək də, doymadığımız görüntülər idi. Prezident uşaqlardan birindən hava soyuq olduğu üçün üst geyimini geyinməsini istədi. Digər uşağın onu videolentə aldığını görən ölkə başçısı gülümsəyərək kameraya zəfər təəssüratlı görüntülər sərgilədi. Həmin kadrlar milyonlarla izləyici tərəfindən rəğbətlə qarşılanaraq günün videosuna çevrildi. Uşaqlarla sevgi dolu fotolar çəkdirən, onlarla elə onların dili ilə söhbət edən Prezident və onun xanımının şəhid övladları ilə səmimi görüntüləri hamımızın qəlbini riqqətə gətirdi. Oturacağını Prezidentə əmanət edən şəhid övladına “Yerini saxlayacağam, qoymayacağam heç kimi...” dialoqu isə günün əsl gündəminə çevrildi.

Həmin gün qarşılıqlı pak hisslərdən, səmimi duyğulardan yaranan sevgilərini, heyranlıqlarını uşaqlar hərəsi bir cür ifadə etdi. Bu Prezidentin uşaqlarla ilk səmimi görüntüləri deyildi. Belə kadrların dəfələrlə şahidi olmuşuq. Elə bir neçə ay əvvəl Laçında Prezidentin laçınlı uşaqlarla görüşü zamanı uşaqların sevinci yerə-göyə sığmırdı. Və eləcə də könüloxşayan sevgi dolu digər görüşlər...

...Deyirlər, sadəlik və səmimiyyət insan xarakterinin, bəlkə də, ən vacib keyfiyyətlərindən biridir. Özü də bu insani xüsusiyyətlər təbii olanda zərifləşir, ülviləşir, sahibinə əzəmət gətirir. Bir də sevgi… Müdrik dünyanın əyilməz sütunu olan saf, təmiz, pak sevgi… Bu sevgini səmimiyyətin, sadəliyin, humanizmin parlaq nümunələri olan cənab İlham Əliyev və adı kimi mehriban, nəcib, təvazökar xanım Mehriban Əliyevanın Vətəninə, xalqına, millətinə olan sevgisinin timsalında görürük. Elə bu sevgidir Azərbaycanımızı nura qərq edən, al-əlvan rənglərə boyayan… Qoy yurdumuza sevgi şöləri hər an işıq saçsın! Bütöv Azərbaycanımız bu nurla, bu işıqla süslənsin!

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fləş-mob keçirilib



Naxçıvan Dövlət Universitetində 11 fakültənin 800 tələbəsinin iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fləş-mob keçirilib. Fləş-mobda Ümummilli Liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən 625 foto birləşdirilərək Ulu Öndərin böyük portreti yaradılıb.

## *“Unudulmaz lider 100”* adlı fotoxalça sərgisi və tamaşa nümayiş olunub



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və “Qeyd - Sosial Maarifləndirmə” İctimai Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan Dövlət Milli Dram Teatrında “Unudulmaz lider 100” adlı fotoxalça sərgisi və “Xilaskar” tamaşasının nümayişi keçirilib.



Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Həsən Seyidov Ulu Öndərin 100 illik yubileyinin ölkəmizdə böyük qürur və bayram əhval-ruhiyyəsində qeyd olunduğunu bildirib.

“Unudulmaz lider 100” adlı fotoxalça sərgisinin məqsəd və əhəmiyyətindən danışan “Qeyd-Sosial Maarifləndirmə” İctimai Birliyinin sədri Tural Nurməmmədov vurğulayıb ki, sərgidə Ümummilli Liderə məxsus xüsusi fotoların əks olunduğu 44 xalça nümayiş olunur.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru, millət vəkili Cəbi Quliyev “Heydər Əliyev İli”nin ölkəmizə çox düşərli olduğundan bəhs edib.

Sonra tədbirin iştirakçıları yazıçı-dramaturq Aqşin Babayevin “Xilaskar” əsəri əsasında səhnələşdirilən eyniadlı tamaşaya baxıblar.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



**Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları "Şərq qapısı" qəzetində görəcəksiniz.**

## Vətənini, xalqını təmsil etmək üçün dövlətinə bağlı olmalısan

Azərbaycanın milli dövlətçilik tarixinin ən güclü dönəmini yaşadığımız bir dövrdə dostlarımızla mövcud əlaqələrin daha da möhkəmləndirilməsi, xalqımızın bədxahlarına qarşı bir yumruq kimi birləşib, daha da həmrəy olmağımız günün aktual məsələlərindəndir. Bu mənada, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyasını ölkəmizin hüdudlarından kənarda inkişaf etdirən Moskvada yaşayan həmvətənlərimizin milli diaspor təşkilatı və onun hazırkı sədri, həmyerlimiz ***Bəxtiyar Həsənov*** haqqında söhbət açmaq dünya azərbaycanlılarının həmrəyliyi ayında olduqca maraqlı olardı.

Bəxtiyar Həsənov 1974-cü ildə Ordubad rayonunun Dəstə kəndində anadan olub. Orta təhsilini bu kənddəki 1 nömrəli məktəbdə, ali təhsilini isə Kazan Dövlət Humanitar-Pedaqoji Universitetində alıb. İxtisasca şərqşünasdır. İki övlad atası olan Bəxtiyar Həsənov hazırda Rusiyada "Bakhticom" şirkətlər qrupunun təsisçisi və rəhbəridir.

Bəxtiyar müəllimin Moskva kimi strateji, siyasi və milli münasibətlərin çox həssas olduğu bir paytaxt şəhərində uğurlu biznes fəaliyyəti ilə yanaşı, ölkəmizin maraqları baxımından olduqca vacib olan diaspor fəaliyyətinə başçılıq etməsi ona göstərilmiş etimaddan xəbər verir. Ötən dövrün təcrübəsi göstərir ki, diaspor fəalı olmaq üçün Rusiya kimi geniş imkanlara malik, lakin, eyni zamanda bir çox iri güclərin maraqlarının kəsişdiyi bir ölkədə bu xüsusi bacarıq tələb edir. Məhz bu keyfiyyətlərə malik olan Bəxtiyar Həsənovun Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin sədri kimi fəaliyyəti qısa müddətdə bu təşkilatın yenidən həyata qaytarılmasına və uğurlu bir komanda qurulmasına ciddi töhfə verib.

2022-ci ildən Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinə rəhbərlik edən Bəxtiyar Həsənov ilk olaraq Rusiya Federasiyası və eləcə də Moskva şəhəri rəsmiləri ilə münasibətlərin qaydaya salıb, Moskva meri, Rusiya Milli siyasət və regionlararası əlaqələr Departamentinin, Moskva Millətlər Evinin rəhbərləri ilə əlaqələri sıxlaşdırıb, diaspor təşkilatının mövqelərini möhkəmləndirib. Qonşu ölkədə diaspor fəaliyyətinin gücləndirilməsi məqsədilə Rusiyadakı rəsmi qurumlarla yanaşı, ölkəmizdə fəaliyyət göstərən Azərbaycan-rus icması ilə də əlaqələrin möhkəmləndirilməsi də bu müddətdə diqqətdə saxlanılıb.

Müstəqil Azərbaycan Respublikasının qurucusu, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ölkəmizdə olduğu kimi, Rusiya Federasiyasında da geniş və hərtərəfli qeyd olunmaqdadır. Bu mənada, yola salmaqda olduğumuz il Bəxtiyar Həsənovun sədri olduğu Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı və ya iştirakı ilə keçirilən çoxsaylı silsilə xarakterli əhəmiyyətli tədbirlərlə yadda qalıb. Ümummilli Liderin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev – epoxal şəxsiyyət" adlı müsabiqə, Rusiyanın Federasiya Şurası, Azərbaycan Prezidentinin Administrasiyası, TASS informasiya agentliyi və Heydər Əliyev Fondunun təşkil etdiyi "Rusiyada qəlbimin bir hissəsi var" adlı sərgi, "Rusiya və Azərbaycan arasındakı münasibətlərin inkişafında teologiya və multikulturalizm təcrübələrinin



rolu" mövzusunda dəyirmi masa və onlarla belə tədbirlər keçirilib.

Moskvadakı diaspor təşkilatımız həmvətənlərimizin koordinasiyalı fəaliyyəti, müxtəlif xeyriyyə aksiyaları və ünvanlı yardımlarla yanaşı, eyni zamanda əlamətdar günlərdə tədbirlərin keçirilməsi, günün aktual məsələləri ilə bağlı görüşlərin təşkili ilə də seçilir. Cari ildə muxtariyyət nəzdində soydaşlarımıza hüquqi yardım mərkəzinin yaradılması, Rusiyada miqrasiyanın tənzimlənməsi məsələləri çərçivəsində soydaşlarımıza hüquqi və maddi yardımlar göstərilməsini də qeyd etmək lazımdır.

Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti həm müsəlman icması, həm də pravoslav icma ilə də xüsusi əlaqələr yaradaraq din xadimləri və dindarlara aktiv yardımlar edir, Rusiyada konfessiyalararası sülhə töhfə verməyə çalışır. Bunlarla yanaşı, Moskvadakı diaspor təşkilatımızın fəaliyyəti çərçivəsində müştərək layihələr kimi azərbaycanlıların SSRİ və Rusiya neft sənayesinə verdiyi töhfələrə həsr olunan beynəlxalq elmi konfransda, Moskva Dövlət Avtoyol Texniki Universitetində keçirilmiş "Mənim ölkəm" adlı ənənəvi beynəlxalq festivalda azərbaycanlı tələbələrin iştirakını və onların təqdimatında "Bahar yurdu" mahnısını və "Qarabağ" ansamblının rəqsini qeyd etmək olar.

Bundan əlavə, çox mühüm məsələ kimi Rusiya Federasiyasının subyektlərində fəaliyyət göstərən digər Azərbaycan ictimai təşkilatları ilə əlaqələrin möhkəmləndirilməsi məqsədilə Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin nümayəndə heyətinin Sankt-Peterburq, Arxangelsk, Komi, Orenburq və Rusiyanın digər subyektlərindəki Azərbaycan diaspor təşkilatlarının rəhbərləri ilə də görüşlərini xüsusi olaraq qeyd etmək lazımdır. Təşkilatın təşəbbüsü ilə Moskvada yaşayan azərbaycanlı qadınları bir araya gətirmək məqsədilə paytaxtın təhsil ocaqlarının tanınmış müəllimləri, şairələr, publisistlər, uğurlu iş adamları olan qadınlar, eləcə də yaradıcı peşələrin təmsilçiləri, mədəniyyət və incəsənət xadimləri ilə görüş keçirilib, ötən il görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş poeziya axşamı təşkil olunub. Ümumilikdə isə ötən ilin payızından Moskva azərbaycanlılarının elmi elitasının nümayəndələri ilə – tanınmış alimlər, akademik dairələrin təmsilçiləri, mədəniyyət və incəsənət xadimləri və digər görkəmli soydaşlarımızla görüşlər müntəzəm xarakter alıb.

Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti öz fəaliyyətini Rusiya paytaxtı hüdudlarından kənarda da genişləndirir. 2023-cü il fevralın əvvəlində qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra bütün həmvətənlərimiz kimi Rusiyada yaşayan həmvətənlərimiz də səfərbər oldular. Bəxtiyar Həsənovun başçılıq etdiyi Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti zərərçəkmiş insanlara zəruri yardımın göstərilməsi, təbii fəlakət səbəbindən dağıdılmış infrastrukturun bərpası, bu bəlanın nəticələrinin aradan qaldırılması üçün maliyyə vəsaitinin mərkəzləşdirilmiş



qaydada toplanması ilə bağlı təşəbbüs göstərib.

Bəxtiyar müəllim qısa müddətdə qazanılan uğurları doğma Vətəni ilə bağlılıqda görür. Onunla telefon söhbətimizdə Şuşa şəhərində dünya azərbaycanlılarının tarixi əhəmiyyətli Zəfər Qurultayında iştirakından, müntəzəm olaraq Bakıya, Naxçıvana, doğma Ordubada səfərlərindən xüsusi olaraq qürurla bəhs etdi. Elə Bəxtiyar müəllimin Naxçıvana son səfəri də uğurlu alınmış, yeni layihələr üzərində fikir mübadiləsi aparılmışdır. Naxçıvanın tarixinin, mədəniyyətinin Rusiyada təbliğ olunması, turizm-sağlamlıq potensialının tanıdılması perspektivləri müzakirə edilmiş, Nəcəfqulu Rəfiyevin qəhrəmanlıq göstərdiyi Belarusun Baranoviçi şəhəri ilə Ordubadın qardaşlaşması müqaviləsi təşəbbüsü yüksək qiymətləndirilmişdir.

Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətini qarşıda mühüm vəzifələr gözləyir. Bu mühüm diaspor təşkilatımızın rəhbəri Bəxtiyar Həsənovun sözlərinə görə isə Rusiya ərazicə böyük, tərkibinə görə çoxmillətli olsa da, burada insanların dilini tapmaq üçün ilk olaraq öz dilini yaxşı bilməli, millətinə bağlı olmalısan. Beş dildə sərbəst danışa bilən Bəxtiyar Həsənovun da diaspor sədri kimi uğurlarının əsasında bu dayanır.

**Əli CABBAROV**

# Memar ƏCƏMİ – 900

"Keçmişlə ədəbiyyat arasında" kitabında qeyd edilir: "...Məşhur ustad Əcəmi ən vacib bir işini, Böyük Atabəyin sifarişini başa çatdırmışdı. Bu, Ana Şahbanunun, Atabəy Şəmsəddin Eldənizin zövcəsi Möminə xatının türbəsi idi… Türbədən eşidilən səs, Atabəy Şəmsəddin Eldənizin ılıq nəfəsinin pıçıltısı sanki indi də qulaqlarımızdadır. Üzünü başdaşına söykəyərək yerə çökmüş, məzarı bağrına basmış bu qoca bahadır, möhtəşəm döyüşlərin yenilməz qazisi göz-



## "Biz gedirik, ancaq qalır rüzigar, Biz ölürük, əsər qalır yadigar"

yaşları içində pıçıldayırdı: "Biz ayrılanı düz bir ay oldu... Burada bir memar var... Səndən ötrü ona türbə sifariş etdim... Yəqin, hazırını görməyəcəm... Eybi yox, mən görməsəm də olar... Qoy başqaları görsün... Qoy sənin adın yaşasın. Sən yox olub getməyəcəksən, sən burada, bu yerdə kök atacaqsan. Günlərin bir günündə, hər şeyin unudulub getdiyi, yaddan çıxdığı bir gündə sənin soy ağacın təzədən bəhrə verəcək. Sənə söz verirəm... O vaxtlar ki bu Yer üzündə bizlərdən heç birimizin hökmü – fərmanı, adı-sanı qalmayacaq, mən, mənim hakim oğullarım, böyük sultanlar, əmirlər belə fani olacaq, bax həmin o vaxtlarda da sənin adın yaşayacaq və uca tutulacaq..."

Bu sözlər şəhərin bir hissəsini yerləşdiyi yüksəklikdən izləyən, yamyaşıl bağın ağuşunda qərar tutub, qaynar həyatla iç-içə olan abidəyə adı verilən, el arasında hörmət və sevgi sahibi olan Möminə xatına ithaf olunub. Həmin abidə isə öz yaradıcısını məğrur-məğrur izləyən, qədim Xan sarayını öz əhatəsinə almış zərafət nümunəsi Möminə xatın türbəsidir. Şəhərin qədim Şərq memarlıq xüsusiyyəti və müasir infrastrukturunu harmoniya ilə özündə ehtiva edən bu qədim abidə elə tarixin özüdür. Türbə yalnız Azərbaycan tarixi və memarlığının deyil, həm də Azərbaycan qadınına duyulan sevgi və hörmətin nişanəsidir.

O sanki öz əzəməti, məğrurluğu ilə səni səsləyir. Bu dəvətə təşrif etməmək mümkün deyil... Türbə və onun ətrafında tarix çox canlıdır. Onun ətrafında dövr edib nəzər yetirəndə artıq sən müasir Naxçıvanda yox, əsrlər öncə görkəmli hökmdarların hökm sürdüyü, mühüm tarixi hadisələrin cərəyan etdiyi zamanın insanı olursan.

Saf eşqi simvollaşdıran incə kompozisiyalı bu türbə həm də türk-İslam aləminin görkəmli abidələrindən hesab edilir. Dövrün portretini çəkən bu abidənin yanındakı Açıq Səma Altında Muzey də özlüyündə böyük mənaya sahibdir. Deyirlər ki, o dövrdə məzar daşları indiki kimi dəbdəbəli və göstərişli deyil, sadə qoyularmış. Muzeydə sərgilənən qoç heykəllər də məhz həmin məzarlarda əbədi yuxuya gedənlərin məzar üstünə qoyulan heykəllərdir. Heykəllərə həkk olunmuş təsvirlər isə həmin insanların hansı peşə sahibi olduğunu ifadə edir. Keçmişin bizə miras qoyduğu abidəni ziyarət edənlər bu muzeyi, heykəlləri və fiqurları görmədən türbəyə daxil olmurlar.

Bu abidəni seyr etmək belə insan ruhunun dincəlməsinə kifayət edir. Məqbərənin gövdəsini bəzəyən həndəsi ornametlər, epiqrafik naxışlar kənardan baxıldıqda bir-birinə çox bənzəyir. Lakin istifadə edilən hər naxış sanki zərgər dəqiqliyi ilə bir-birindən fərqləndirilib. Türbənin başdan-başa on guşəsinin bir-birini təkrarlamayan, azacıq belə oxşamayan mürəkkəb həndəsi naxışlarla işlənməsi onun yaradıcısının – memar Əcəminin zəngin bədii təfəkkürünün zənginliyindən xəbər verir. Özünəməxsus memarlıq xüsusiyyətlərinə malik olan bu monumental abidəni memar Əcəminin şah əsəri hesab etmək olar.

Böyük qüdrət sahibi olan hökmdar Şəmsəddin Eldəniz öz həyat yoldaşının ölümündən sonra ona həsr etdiyi abidənin tikintisinin tamamlanmasını görə bilmir. Çünki o ömür yoldaşından cəmi bir ay artıq yaşaya bilir. Böyük məhəbbətin nişanəsi olan bu nadir əsərin haqqında çox söz söyləmək olar. Lakin burada əsas məharət sahibindən – onu ərsəyə gətirən, bu gün heykəlinin Möminə xatın türbəsi ilə üzbəüz dayandığı memar Əcəmidən bəhs etmək də mütləqdir. O memar ki bu gün onun 900 illik yubileyi beynəlxalq miqyasda – UNESCO çərçivəsində qeyd olunacaq yubileylər siyahısına daxil edilib. Naxçıvan memarlıq məktəbinin banisi hesab edilən Əcəmi Naxçıvaninin yaradıcılığı Azərbaycanda və dünya memarlığında bu gün də ilham mənbəyi rolu oynayır. Bu görkəmli memara nə qədər hündür, nə qədər böyük heykəl qoyulsa belə onun bizə miras qoyduğu abidələrin dəyərindən, yaradıcı irsindən böyük olmayacaq, adı daim yaddaşlarda qalacaq. Bəlkə də, dahi sənətkar bu abidənin qazanacağı şöhrəti əvvəlcədən hiss edərək yazmışdı:

*Biz gedirik, ancaq qalır rüzigar,*
*Biz ölürük, əsər qalır yadigar.*

**Aysel YUSİFZADƏ**

## Elan

"Naxçıvan Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

31 yanvar 2024-cü il tarixdə cəmiyyətin növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. Cəmiyyətin fəaliyyəti ilə bağlı hesabat.*

*2. Cəmiyyətin qiymətli kağızlarının dövriyyədən çıxarılması və təşkilati-hüquqi formasının dəyişdirilib Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilməsi.*

*3. Cari məsələlər.*

## İtmişdir

Şərur rayonu, Yuxarı Aralıq kənd sakini Məhərrəmova Aytən Əsgər qızının adına olan JN-294A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Püsyan kəndində yaşamış Əliyev Cəmil Əli oğlunun adına olan JN-793A nömrəli 10212018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Vərməziyar kəndində Seyidov Mirməhərrəm Mirmöhsün oğlunun adına olan MH 0025965 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Qazançı kəndində yaşamış Abbasov Yamən İsmayıl oğlunun adına olan JN-172A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Regional Peşə Hazırlığı Mərkəzi tərəfindən Nəbiyeva Sahilə Səfər qızının adına 20.05.2016-cı ildə verilmiş 002386 nömrəli aşpaz köməkçisi sertifikatı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 755